# XINALIQ ETÜDLƏRİ

*(poema)*

**Redaktor: Tariyel Abbaslı**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AYB-nın üzvü, Prezident təqaüdçüsü*

**Ön sözün**
**müəllifi: Nizaməddin Şəmsizadə**
*filologiya elmləri doktoru, professor,*
*Dövlət mükafatı laureatı*

**Zəminə Xınalı, «Xınalıq etüdləri», Bakı, «Təknur», 2014, 104 səh.**

*"Xınalıq etüdləri" kitabı hərbçi-şairə Zəminə Xınalının oxucularla yeni görüşüdür. Şairə 2014-cü ilin iyul ayında Xınalıqda olarkən Xınalığın təkrarsız gözəllikləri və qeyri-adiliyi onu məftun eləmiş və bu etnoqrafik etüdlərdən ibarət poemanı qələmə almışdır.*
*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tututulmuşdur.*

**ISBN: 978-9952-445-02-8**

***© ZƏMİNƏ XINALI, 2014***

## MÜƏLLİFDƏN

Bu kitabın nəşrində göstərdiyi maddi dəstəyə görə elqızım, həmyerlim ”Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək “(VSRGD) İctimai Birliyinin sədri Əsgərova Venera Yusif qızına öz minnətdarlığımı bildirirəm.

Uzun illərdir ki, ”VSRGD” İB-nin əsas məqsədi və amalı dövlətin sosoial layihələrinin həyata keşirilməsində fəal iştirak etmək, vətəndaşların sosial rifahına dəstək olmaq və bununla da Azərbaycanda Vətəndaş Cəmiyyətinin formalaşmasına əməli köməklik göstərmək olmuşdur.

İB 2014-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə”Milli-mənəvi, əxlaqi dəyərlərin gənclər arasında təbliği və təşviqi” adlı yeni layihənin həyata keçirilməsinə də başlamışdır. Amalı vətənpərvərlik, vətənsevərlik olan Venera xanım Azərbaycanın Şimal bölgəsinin turizm marşurutuna daxil edilmiş öz dilini, adət və ənənəsini qoruyub saxlayan qədim Xınalıq haqqında yazılmış bu əsərə sponsorluq etməklə milli-mənəvi dəyərlərimizə olan sevgisini, vətənsevərliyini bir daha nümayiş etdirdi.

Dünyada analoqu olmayan Xınalıq haqqında yazılmış “Xınalıq etüdləri” adlı bu əsərim inanıram ki, dünyanın bir cox dillərinə tərcümə olunaraq, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasına xidmət edəcəkdir. Ona görə də bir daha öz adımdan və dəyərli oxucularım adından Əsgərova Venera Yusif qızına dərin təşəkkür edirəm.

# XINALININ XINALIĞA SEVGİSİ

Müasir Azərbaycan ədəbiyyatı, ədəbi prosesi, poetik imzaların zənginliyi və əlvanlığı ilə seçilir. Belə nadir imzalardan biri bizim ədəbiyyatımızda hərbi-vətənpərvərlik mövzusunda yazan hərbçi şairə kimi tanınmış Zəminə Xınalının imzasıdır.Mən Z.Xınalının şeirləri, ümumiyyətlə yaradıcılığı ilə coxdan tanışam. O. həmişə Azərbaycanda cox az yazılmış mövzulardan biri olan hərbi- vətənpərvərlik mövzusunda. daha doğrusu ordu mövzusunda yazır.Zəminə Xınalı Azərbaycanda hərbi marşlar müəllifi kimi də tanınır. Bu gün məcburən, ədalətsizcəsinə müharibəyə cəlb olunmuş bir ölkədə bizim ordumuz haqqında yazmaq həqiqətən hər bir şairin vətənpərvərlik borcudur, bir ziyalı borcudur, vətəndaş borcudur. Mən həmişə demişəm: bu gün ən hörmətə layiq olan şəxs hərbi paltarlı insan olmalıdır. Zəminə xanımın “ Xınalıq etüdləri” poemasında gözəl bir bəndi mənə doğurdan da cox təsir elədi:

*Göydən yerə enmiş idi buludlar,*
*Coşub- daşıb, çağlayırdı bulaqlar.*

*Gəlişimə sevinirdi uşaqlar-*
*Əsgər gəlib Xınalığa dedilər.*
*Dağ çiçəyin dəstə-dəstə verdilər.*

Yəni, Zəminə Xınalı ləyaqətli və nəcib bir Azərbaycan xanımı olmaqla bərabər, eyni zamanda hərbi formaya həmşə hörmətlə yanaşıb. Mən həmişə, hər yerdə bütün tədbirlərdə onu hərbi formada görmüşəm. Yadımdadır ki, bir dəfə mənim oğlum evimizə hərbi köynək geyinib gəlmişdi. Bunu görən nəvələrim tez ayağa durub Azərbaycanın himnini oxumağa başladılar. Yəni bu körpələr üçün hərbi forma Azərbaycanın timsalıdır, rəmzidir.

Elə bilirəm ki, Z.Xınalının bir şair obrazı da onun hərbi formada olmasıdır. Mən onun poeziyasına hərbi mundirli poeziya deyərdim.

Bu barədə mətbuat səhifələrində coxlu yazılar, o cümlədən filologiya üzrə fəlsəfə doktoru T.Abbaslının "Zəminə Xınalının yaradıcılığında hərbi-vətənpərvərlik" monoqrafiyası da var. Və bu əsərə AMEA-nın müxbir üzvü, akademik N. Cəfərov da ön söz yazıb. Qeyd edim ki, "Xınalıq etüdləri" poeması məni öz mövzusu ilə cox cəlb elədi. Çünki mən Qubada doğulmuşam, Şahdağının ətəyində böyümüşəm, oralar, xüsusilə, dünyanın cox nadir məkanlarından biri olan Xınalıq

mənə cox doğmadır, cox yaxındır. O el mənə doğmadır, o elat mənə doğmadır. Bu poemadan da göründüyü kimi Şahdağ xalqları adiyla bizim ədəbiyyatımıza bəlli olan, tariximizə düşən xalqlar: - xınalıqlılar, buduqlular, hapıtlilar və sair xalqlar yaşayır. Və bunlar elə bil ki, Azərbaycanın milli əlvanlığı ilə seçilən bir çələngidir.

Bu baxımdan da mən bu poemanı cox maraqla oxudum və deyim ki, bir qədər hadisələri sürətlə və təfsilatı ilə verməsinə baxmayaraq Z.Xınalı hamımızın sevdiyi Xınalığı bir daha bizə sevdirdi. Yəni bu poemanı oxuyub Xınalığı görmək və sevmək olar. Elə bilirəm ki, bu baxımdan əsər öz bədii funksiyasını, özünün ideya məzmun funksiyasını yerinə yetirmişdir.

Poemada Z.Xınalı Xınalığa olan sevgisini cox aydın şəkildə ifadə edir. O yazır ki:

*Daşlarınla danışanda,*
*Könlüm yanıb alışanda,*
*Duydum sənin baxışında*
*Bu sevgini, ay Xınalıq!.*

Digər bir bəndində isə:

*Adın mənə ilham verdi,*
*Dağın mənə duman verdi,*

*Yolun mənə güman verdi,*
*Sənə gəldim, ay Xınalıq!*

Bu o gəliş idi ki, əsərin əvvəlində Z.Xınalı yazır ki.uzun illlər az qala yarım əsr Xınalığın həsrətilə yaşamışam.Əsəri oxuyarkən belə düşündüm ki, müəllif bu poemanı yazmaqla ucalığa bir təşnə axtarır. Şair qəlbi həmişə adi gözəlliklərdən, qeyri adi gözəlliklərə yol axtarır. Və əsasən ömrü boyu vətənpərvərlikdən, əsgərin vətənə olan məhəbbətindən yazan bir şairə bu dəfə Vətən timsalı olaraq, Azərbaycanın ən uca nöqtəsində yerləşən və bütün dünyada məşhur olan, Azərbaycan xalqının hər bir oğluna, hər bir qızına tanış olan Xınalığı seçib. Mən bu poemanı oxuyandan sonra Xınalığı bir daha yenidən tanıdım. Nəynən tanıdım? Elə bilirəm ki, bu poemanın ədəbiyyatımız üçün, müasir ədəbi proses üçün dəyəri ondan ibarətdir ki, bu əsər etnoqrafik və etnogenez bir əsərdir. Bu əsərdə Xınalığın xurcunundan tutmuş, dəvə belinə bənzər dağ aşırımından tutmuş, Xınalığın güzgü kimi par-par parlayan çaylarından, göllərindən tutmuş qədim adət-ənənələrinə: cəhrəsinə, kiliminə, xalçasına, palazına qədər hər şeyi şairə nəzmə çəkib. Bəlkə də cox şeyi demək marağından və həvəsindən, bəlkə də duyduqları-

nın, gördüklərinin, eşitdiklərinin hamısını şeirə çevirmək istəyindəndir ki, o, elə bil ki, gördüyü və duyduğu təəssüratları oxucularına çatdırmaq istəyir.

Mənim xoşuma gələn cəhətlərdən biri də o oldu ki, o, elə bil ki, Xınalığın havasını, suyunu da, ulduzunu, ayını da, gecəsini, gündüzünü də, dumanını, çənini də sanki öz canına hopdurub. O elə bil ki, bir növ bir "Xınalıqnamə" yazıb. Mən deyərdim ki, bu Xınalığa vurğun bir vətənpərvər xanım şairənin Xınalıqnaməsi-Xınalığa yazdığı bir məktubudur: Daha doğrusu Xınalığın əvəzedilməzliyi, gözəlliyi, ucalığı, əzəməti, möhtəşəmliyi haqqında özündən sonra gələn nəsillərə ünvanladığı bir məktubdur. Bir cəhəti də xüsusi qeyd eləmək istəyirəm ki, Z. Xınalı Xınalığın dəyərini təkcə onun təbii gözəlliklərində görməyib, onun insanlarında, övladlarında axtarıb.Çünki Xınalıq övliyalar, ənbiyalar, ocaqlar, pirlər məskənidir. Xınalıq özü ucalığın, saflığın paklığın daşıyıcısi olduğu kimi, oradakı insanlar da bizim türk xalqının Azərbaycan xalqının ucalığını, gözəlliyini, saflığını daşıyırlar. Ona görə də şairə onlarla övliyanın, peyğəmbərin, əfəndinin adını çəkir və onları həqiqi xarakterizə eləməyə çalışır. Və elə bilirəm ki, dinimizə hörmət və ehtiramın yüksəldiyi bir dövrdə, bu gün İslam

dininin bütün dünyanı fəth etdiyi bir zamanda, İslami dəyərlərin, mənəvi dəyərlərin uca tutulduğu bir dövrdə, əsl din xadimlərimizə belə bir şairənə sevgi ilə, ürəklə, məhəbbətlə yanaşma bu poemanın dəyərini gələcək nəsillər üçün daha da artırır.

Nəhayət, qeyd edim ki, bu poemanın müasir ictimai fikir üçün, müasir Azərbaycan insanı üçün, ədəbiyyat tariximiz üçün əhəmiyyətini artıran, dəyərini əbədiləşdirən bir cəhət var: - bu əsər Xınalığın simasında Azərbaycançılıq ideyasına, Azərbaycançılıq məfkurəsinə xidmət edən bir əsərdir. Mərhum prezidetimiz Ulu Öndərimiz Heydər Əliyev də, bu günkü prezidentimiz cənab İlham Əliyev də azərbaycançılıq məfkurəsini nəinki ədəbiyyatın, bütün mədəniyyət sahələrinin, hətta arxitekturanın, memarlığın belə inkişafında əks olunmasını tövsiyyə edir, və tələb edirdi. Mən elə bilirəm ki, bu həm də Z.Xınalının cənab prezidentimiz İlham Əliyevin tələbinə bir şair cavabıdır. Yəni ki, bu poemanı oxuyub təkcə Xınalığa yox bütün Azərbaycana vurulmaq mümkündür. Çünki Azərbaycanın gözəlliyi Xınalığın timsalıda öz əksinii tapır. Poemada şairə cənab prezident İlham Əliyevin Xınalıq camaatı ilə görüşünü də təsvir etmişdir.

Bu əsərin ləyaqətini təmsil edən cəhətlərdən

biri də Z.Xınalının Xınalığa olan cox səmimi bir duyğularla sonsuz məhəbbətinin olmasıdır. Mən elə bilirəm ki, Z.Xınalının Xınalığa məhəbbətinin bir simvolu da var :- O da onun ədəbi təxəllüsüdür: “Xınalı- Xınalıq” . Bir hərf fərqi var.

Əsərdə elə yerlər var ki, Z.Xınalı Xınalığı öz üzərinə köçürür, amma cox yerlərdə isə öz obrazını Xınalığa bənzədir və deyir ki, təxəllüsümü ona görə sevirəm ki, o bənzəri olmayan Xınalığa bənzəyir. Bu isə əsərdə bir bədii priyom, bir üsul kimi özünü doğruldur.

Mən Z.Xınalıya yeni yaradıcılıq uğurları arzulayıram və elə bilirəm ki, ”Xınalıq etüdləri” etnoqrafik poeması Azərbaycan poemaları içərisində öz layiqli yerini tutacaqdır.

***NİZAMƏDDİN ŞƏMSİZADƏ***

*Filologiya elmləri doktoru, professor,*
*Respublika Dövlət Mükafatı laureatı*

# XINALIQ ETÜDLƏRİ
## *(poema)*

İllər idi, həsrətlə mən
Xınalığı arzuladım.
Arzuların qanadında
Ona bir namə yolladım;

- Həsrətinə dözəmmirəm,
Kədərliyəm güləmmirəm,
Niyə sənə gələmmirəm,
Xınalıq, ay Xınalıq.

Deyirlər ki, dağ başında,
Kimsə yoxdu, sən yaşında .
Xınalının sən başında
Tac olmusan, ay Xınalıq.

Adın mənə uğur şərəf,
Gələmmirəm sənə tərəf.
Sən olmusan yurda sələf
Nur olmusan, ay Xınalıq.

Mən Vətənin keşiyində
Əsgər oldum, ay Xınalıq.
Könlüm alışıb – yananda
Od olmusan, ay Xınalıq.

Dost tanışlar arasında,
Şairlərin sırasında,
Xınalının imzasında
Ad olmusan, ay Xınalıq.

Könlüm səni arayanda,
Saçlarımı darayanda,
Xınalıya oxşayanda
Şad olmusan, ay Xınalıq.

Hər an baxıb gözün mənə,
Qüvvət verib sözün mənə,
Kim deyir ki özün mənə,
Yad olmusan, ay Xınalıq.

Əslim Qazax mahalından,
Xəbərsənmi de;-halımdan,
Körpü saldım soragından
Səndən ötrü, ay Xınalıq.

Xəyal istək çin olmur ki,
Arzu coxdur min olmur ki,
Halva-halva demək ilə
Ağız şirin olmayır ki.

Əlçatmazdır bu istəyim,
Qayğılar aman verməyir.
İşi yarımçıq qoymağa
Vicdanım da yol verməyir.

Kim bilir ki, bu həyatda,
Nələr çəkdim, nələr gördüm.
Xınalığın arzusuyla
Könlümdə saraylar hördüm.

Bu sarayın zirvəsində,
Xınalığı uca gördüm.
Xəyalların qanadında
Mən özümü orda gördüm.

İllər idi xəyalımda
Dolanırdı Xınalıq.
Gözlərimin önündə
Canlanırdı Xınalıq.

Təxəllüsüm Xınalıdı,
Arzularım Xınalıqdı.
Bu istəyi bəxş eyləyən
Ulu, uca bir varlıqdı.

Iş yerimdə xidmət dövrü
Hamı həsəd aparırdı.
Xınalıqdan olduğuma
Bir coxları inanırdı.

Mənsə sənə yol gəlirdim,
Səni yaman bəyənirdim.
Dağ yolunu keçəmmirdim
Gələmmirdim, ay Xınalıq.

Yarım əsr ayrı qaldım,
Allahıma cox yalvardım.
Qeybdən bir soraq aldım;
Yol açılıb, ay Xınalıq.

Əziz Ramazan günündə
Tanrı məni sevindirdi
Könlüm, ruhum, cismim, canım
Sübh tezdən yol gedirdi.

Yol yoladşı oldu bizə
Tahir Şirvanla Elnarə.
Hər ikisi ziyalıdır
Yaman yatdı könlümüzə.

Tariyel Abbas, Tahir Şirvan
Ömrü boyu dost olublar.
Bu dostluqla yoldaşlıqla
Sənə tərəf yol alıblar.

Dağ yolunu keşmək üçün
Neçə eniş, yoxuş vardı.
İlk dəfədir dağ yolunda
Qorxu, bəlkə təlaş vardı.

Yollar sanki sıldırımlı
Qayalardan asılmışdı.
Sənə tərəf gələn yollar
Sanki dağa sarılmışdı.

Uzun oldu bu dağ yolu,
Qınadılar məni coxu.
Dilə gəldi ilham pərim
Könlüm dedi şeir oxu.

Adın mənə ilham verdi,
Dağın mənə duman verdi,
Yolun mənə güman verdı,
Sənə gəldim, ay Xınalıq.

Sənə yetdim sənə özüm,
Sən olmusan söhbət sözüm,
Vurğun olub sənə gözüm
Sənə gəldim, ay Xınalıq.

Dağların da dili varmış,
Daşların da dili varmış,
Bu həsrətin sonu varmış
Sənə gəldim, ay Xınalıq.

Daşlarınla danışanda,
Könlüm yanıb-alışanda,
Duydum sənin baxışından
Bu sevgini, ay Xınalıq.

Qoynundakı pir yerləri,
Ulularən qəbirləri,
Türbələri, məscidləri
Gəldim gördüm, ay Xınalıq.

Gəlib gördüm qüdrətini,
Dünya bilir şöhrətini,
Bu illərin həsrətini,
Sənlə böldüm, ay Xınalıq.

Torpağından xoş bir qoxu,
Saçlarıma çələng toxu,
Könlümüzdən keçənləri
Özün oxu, ay Xınalıq.

Təxəllüsüm sənlə qoşa,
Mən də daha doldum yaşa.
Sinə gərdin cox savaşa
Zaman –zaman, ay Xınalıq.

Sənə olan məhəbbətim,
Gəlişimlə xoş niyyətəm,
İnam, dözüm, qətiyyətim
Sənə bənzər, ay Xınalıq.

Gəlib bu gün dağlar dilə,
Soraq verib mehdən yelə,
Əsrin özü zaman belə,
Danışacaq, ay Xınalıq.

Torpağından qalaq-qalaq,
Keşmişindən verir soraq.
Oxunacaq varaq-varaq,
Bu dastanım, ay Xınalıq.

***

Xınalığa gedənlər
Gəlib Qəçrəşdən keçər.
Qayalardan süzülən
Şəlalədən su içər.

Burda yaşıl meşələr,
Adamı heyran edər.
Şəhərdən axın-axın
Nə qədər qonaq gələr.

Qəçrəşdən axan çayın
Suyu necə saf idi.
Ovcuma doldurmuşdum
Dupduru şəffaf idi.

Döndük Əski-İqriqə
Xınalığa gedəndə.
Pərvanə Zəngəzurlu
Şad oldu görüşəndə.

Dəvət eylədi bizi
Bağındakı bulağa.
Hörmət, ehtiram vardı
Evindəki qonağa.

Alma, armud, heyva, nar,
Dolu idi budaqlar.
Bulaqdan su içdilər,
Meyvə dərdi qonaqlar.

Bulaq suyunun çayı
Min bir dərdə dərmandır.
Şairlərdə söz-söhbət-
Bu Tanrıdan fərmandır.

İllərdir ki, dağlardan
Ayrı düşən Pərvanə,
Əski-İqriq kəndində
Qoyub böyük nişanə.

Şair kimi cox böyük,
Hörmət, nüfuz qazanıb.
Ömür-gün yoldaşıyla
Dağlar kimi ucalıb.

Dağlar qızı Pərvanə
Dağlardan ilham alır.
Qalaq-qalaq kitablar,
Gözəl şeirlər yazır.

Sazın-sözün vurğunu
Pərvanə Zəngəzurlu,
Narınc Xatun yolunu
Uğurla davam edir.

Saz havası, saz səsi
İnsanı valeh edir.
“Aşıq Pəri Məclisi”
Bu gün də davam edir.

Aşıq Telli Borçalı,
Gulara Azaflı da,
Rəfiqə Göyçəli də,
Lətifə Çeşməli də,
Bu evdə qonaq olub.

Dağ havası-mehində,
Sazın-sözün sehrində,
Neçə -neçə şairlər
Coxlu seir oxuyub.

Bircə gün qonaq qaldıq.
Dağlar qoynu bu kənddə.
Cox böyük ilham aldıq
Qədim Əski-İqriqdə.

Yol boyu sıralanan
Neçə kəndlər varıydı.
Sadə kənd adamları
Bizi salamlayırdı.

“Qımılqazma”dağların
Qoynuna sığınmışdı.
Bu dünyanın sirrini
Sinəsinə yığmışdı.

“Küsnətqazma” kəndinin
Öz gözəlliyi vardır.
Açılmayıb cox sirri
Bura qədim diyardır.

“Qırızdəhnə” adının
Maraqlı mənası var.
Çöllərində zəmisi,
Daş üstə xınası var.

“Cek” kəndilə “Bostankeş”
Xınalığa yaxındır.
Bu yerlərdə insanlar,
Hər biri cox zəhmətkeş.

Xınalıq ən ucada,
Yüksək zirvədə durur.
Bu kəndlərin haqqında
Söylə-iftixar, qürur.

Bu yerlərin özü də
İnsan kimi qardaşdır.
İllərdir ki, bu kəndlər
Əsrlərə yoldaşdır.

Mayası bir, suyu bir,
Nəsil-tayfa, soyu bir,
Bu kəndlərin özü də
Xınalığa qardaşdır.

Bu kəndlərdən ən qədim
Xınalığın özüdür.
Tarixin daş yaddaşı,
Vuran qəlbi, gözüdür.

***

Yol boyunca Tahir Şirvan söylənib
Dağ yolunda yaman qorxub əsirdi
Çatmaq üçün mənzilinə, məkana,
Ağ qoyundan qurban deyib kəsirdi,
Xınalığa qayıtmaram deyirdi.

On iki həftə sürücülük öyrənən
Maşınını dağa sürdü Elnarə.
Tahir Şirvan titrəyəndə-əsəndə,
Ürəyində bəlkə güldü Elnarə
Xınalığa qaytararam deyirdi.

Tariyel Abbas dağlar oğlu, dağların
Mənbəyindən bulaq suyu içirdi.
Sal daşların arasını yararaq,
Dağ yolunu kişi kimi keçirdi,
Xınalığa daha çatdıq deyirdi.

Göydən yerə enmiş idi buludlar,
Coşub-daşıb cağlayırdı bulaqlar,
Gəlişimə sevinirdi uşaqlar;
Əsgər gəlib Xınalığa dedilər,
Dağ çiçəyin dəstə-dəstə verdilər.

Zirvəsində qartal qanad açaraq,
Xınalığa xoş gəldiniz deyirdi.
Tahir Şirvan elə bil and içmişdi,
Gözəllikdən ilham ala bilmirdi.
Ayaq gedir sanki ürək getmirdi.

Bakılı qız Elnarəni qəhrəman,
Cəngavərdir, mərddir desəm az olar.
Ayaq bassa hara, onu bilirəm
Bax orada bahar olar, yaz olar,
Xınalığa bu gəlişi az olar.

Gözləyirdi yolda bizi Səxavət,
Evlərinə etdi bizi o dəvət.
Soltan müəllim qoçu kəsdi tez xəlvət,
Əlüstücə kabab etdilər əlbət.
Qonaqlarla etdilər şirin söhbət.

Soltan müəllim evin ata ocağı,
Nur paylayır bu mənzilin növrağı.
Yaxşı qarşılarlar burda qonağı,
Ev –eşiyin bərəkəti bol olsun.
Nəvələrin şirin olsun, bal olsun.

Körpə Ayşən beşiyində yatırdı,
Səs-küyümüz onu tezcə oyatdı,
Əlindəki oyuncağı o, atdı.
Necə gözəl, necə şirin uşaqdı,
Arzuladım gözəl bəxt, qızıl taxtı.

Evin gəlni Fəxrəndənin üzündən,
Abır-həya süzülürdü gözündən,
Heç cıxmayıb qaynananın sözündən.
Bax bu evin, bax bu evin adəti,
Əsrə taydır Xınalığın özündə.

Sanki Xınalıqda doğulmuşam mən,
Hər kəsi özümə doğma bilirdim.
Uşaqdan böyüyə elə doğmaydı,
Oturub onlara şeir deyirdim.

Özümə-sözümə Məleykə xanım
Vurğun olduğunu heç gizləmirdi.
Əyləşdik masanın arxasında biz,
Maraqla baxırdı heç nə demirdi.

Baxışı mənalı Məleykə xanım,
Çayı tez dəmləyin dedi qızına.
Çayı da gözəldi, özü də gözəl,
Dünyada varmıdır belə bir ana.

Səadət də, Kifayət də gəldilər,
Süfrə üstə yeməkləri düzdülər
Samovardan ətirli çay süzdülər,
Üzü nurlu, sanki çiçək-güldülər.

Həyəti –bacası çiçək ətirli,
Necə də xoşbəxtdir onlar burada.
Soruşdum hardadır Qismət oğlumuz?
Dedilər növbədir bu gün yayalaqda.

Həsrətin qızıdır balaca Şəfqət,
Dedi qardaşım var adı Şəfayət.
Əlilə göstərib öz evlərini
Mənim atamındır gördüyün həyət.

Birinci sinifə gedəcəyini,
Sevinə -sevinə bizə deyirdi.
Elə qəşəng idi bu balaca qız,
Bizimlə oturub kabab yeyirdi.

Soltan müəllim dağ qoynuda ev qurub,
Çətinlikdən nə qorxub, nə yorlub,
Yaman günü coxdandır ki, unudub,
Bəhməz alıb taleyində bal udub,
Ömrü boyu gövhər udub, ləl udub.

Gecədən bir xeyli keçsə də burda,
Həyətdə oturub söhbət edirik.
Yay fəsli olsa da üşüdük yaman,
Hamımız birlikdə evə gedirik.

Evlərdə-mənzildə yanan işıqlar,
Sanki ulduzlarla yarışa cıxdı.
Burda göy gürladı, yağış yağmadı,
İldırım buludla barışa cıxıb.

Dağların başına dolanan duman,
Dağın vüqarına valeh olmuşdu.
Salxım tək buludlar asılıb göydən,
Gözəllik hicrindən gözü dolmuşdu.

“Qiblə Dağı” sübh çağı buludla,
Salamlayır şəffaf sulu bulaqla,
Dost axtarsan Xnalıqda soraqla,
Bir kitabdır sətir-sətir varaqla,
“Qızıl Qaya”, qızıl bəxtli Xınalıq.

Sal daşlardan süzülürdü bulaqlar,
Daşlar üstə bitmiş idi ağaclar.
Meyvə ilə dolu idi budaqlar,
Ətəyinə doldurmuşdu uşaqlar-
Pay verəndə şad oldular qonaqlar.

Uşaqların yanağı al qırmızı,
Dilim-dilim yeyirdilər qarpızı.
Kəkotunu, ətotunu, yarpızı,
Çay dəmləyib qonaqlara verdilər,
Şirin-şirin danışdılar güldülər.

Yovşan ətri bürümüşdü hər yanı.
Bu gözəllik fəth eyləyib dünyanı.
Xınalığın tayı varmı? De hanı?
Suala tutsan bu dünyanı-cahanı,
Heç gördünmü daş üstündə xınanı?

Tufan dağı tufanlara cox dözüb,
Tufan göldə sonaları cox üzüb.
Tanrı burda gözəlliyi elə bil,
Cərgə-cərgə sanki muncuq tək düzüb
Bu evlərin bənzəri yox Xınalıq.

Evin damı digərinin həyəti,
Canlı muzey xəzinədir qiymıəti,
Halalllıqdır insanların neməti,
Düşündürür burda onun hikməti
Mükafatdır Xınalığın şöhrəti.

Bərkişanə dərəsindən cay axır,
Gecə göydən sanki yerə ay axır,
Gün doğanda göydən yerə pay axır.
Yaz gələndə “Damdam İnqa” hey daşır,
Xınalığa gözəlliklər yaraşır.

“Dəyirman çay” dağdan daşı qoparır,
Sel gələndə sal daşları aparır.
Çay daşları bu hikməti arayır.
Yaylaqlarda çoban quzu otarır,
Bərəkətin aşıb-daşır, Xınalıq.

“Mincə dahar”, ”Xrıc dahar” özü də,
“Kətiş mida”, Ööc”, ”Bazar düzü” də,
Bu dünyanın astarı da, üzü də,
Xınalığın sehirinə vurulub,
Xınalıqda toy-büsatlar qurulub.

Müqəddəsdir burda adəti-dini,
Yetişibdi burda neçə əfəndi,
Nemət, Yaqub, Teyyub, Əyyub Əfəndi,
Hacı Zəki, Hüseyncan Əfəndi,
Hacı Əli, bir də Əhməd Əfəndi
Onların hamısı ali təhsilli.

Qədim ənənələr, qədim inanclar
Xınalıq qoynunda qorunub qalıb.
Nuhun gəmisindən qopan taxta da,
Tufanın gölündə ovunub qalıb.

Xınalığın insanları Allaha,
Ulu Tanrı varlığına inanır.
Cabbar baba, İbrahimxəlil baba,
Seydi baba, Seyx Şalbruz baba
Seyid Qələm, Əbdülrəhman babanın
Ruhlarına bir salavat deyərlər.

Pir yerinin sehrinə bax, daman su,
Axan çaya, gur çeşməyə bənzəyər.
Mağaraya oxşasa da bu yerlər,
Sərt soyuqda quşlar məkan eyləyər,
”Damcılı “pir, “Qırx Abdal “tək söyləyər.

***

Əsrlərdən gələn səs
xoş soraqlı namədir.
İnsanların qəlbinə
günəş nuru sayədir.
“Dörd Dağılan”məscid
-yeni həyatın,
Günəşin döğması

-İsrafil baba
Məscidinin adı ilə
bağlanır.
Insanların inanc
yeri olaraq-
Xınalıqda müqəddəs
yer adlanır.

***

“Damcılı pir”, Xəmir piri “, ”Yara pir”,
“Qırmızı pir”, ”Öküz piri”, Cuta” pir,
“Qızlar “piri, ”Muqoz”, Ağaclıq”piri,
“Şeyx Doğuş baba” piri,
“İbrahimxəlil”piri, ”Pirdərə”,
Duaları çatır uca göylərə.

“Qaragüney”, ”Ağaclıq”piri özü,
”Tacəddin babanın pirinin sözü,
Tanrı dərgahında qəbul edilir.
“Şeyx Şalbruz babanın “ uca pirində
Xınalıqda coxlu dua edilir.
Xınalıqda pir yerləri sevilir.

***

Xınalığın öz tarixi keçmişi,
Mərd olubdur bu dağlarda hər kişi,
Xınalıqda bu yerə öz dilində
“Kəddid”- deyiblər.
Kəndlərinə öz dilində
“Kətiş” deyiblər.
Bu tarixi keçmişə bir sadiqlik,
Bu aqillik,
Bu dahilik deməkdir.

***

Dünya həsəd aparır
Xınalığın özünə.
Dünya həsəd aparır
Xınalığın sözünə.

Tarixi aramalar
Mövzusudur Xınalıq.
Xalqımızın keçmişə
Aynasıdır Xınalıq.

Bu kənd dağlar qoynunda
Alınmaz bir qaladır.
Adı tarixə bəlli,
Qədim bir yurd, obadır.

Dünyanın hər yerindən
Xınalığa gəlirlər.
Vurğun olub bu yerə,
Möcüzədir deyirlər.

Almaniyanın Frankfurt
Şəhərindən bir dilçi
Alim gəlib buraya.
Valeh olub bu yurdda

Şəlaləyə, həm çaya,
Hər daşa, hər qayaya
Sanki düşüb burada
Bir sehrli dünyaya.

Höte universitetindən,
Monika Povlovski-
Xınalığın dilini,
Öyrənib tədqiq edir.

***

Aylar keçir, illər keçir,
Dövran yenə
Xınalığı özü seçir.
Bənzəri yox, Xınalığın,
Başqa yerə, bir məkana,
Xınalığın insanları

Öz tarixı keçmişinə
Sadiq qalıb, qalacaqlar.
Böyük Qafqaz dağlarından
Xınalığın övladları güc alacaq,
Yaşayacaq-yaradacaq!

***

Bircə kənddə yaşayırlar,
Xınalıqda!
Bircə dildə danışırlar, Xınalıqda!
Odlar yurdu, Od diyarı,
Ana Vətən söyləyirlər
Xınalıqda!

***

Şahdağında ən uca
“Heydər zirvəsi”durur.
Burda ziyarət günü
Mayın 10-da olur.

Bu zirvəyə -səcdəyə
İgid ərənlər gəlir.
İdmançılar-əsgərlər,
Vətənsevərlər gəlir.

***

Qəsrləri yaddaş kimi
Qədim !"Ayda qalası"nı
Sirr, daş kimi,
Qədim Alban yazısını
Bir yazılı daş kimi
Qoruyurlar, saxlayırlar Xınalıqda.

Xınalığa kimlər gəlib, kimlər gedib,
Xınalığı pir – müqəddəs bir yer bilib.
Xınalıqda yaşamağı kimlər seçib?
Xınalığa Tanrı özü dəyər verib.

Xınalıqda ağsaqqallar
Kalçıklara yer-yurd verib.
İnsanlarda insanlığı,
Həm saflığı,
Həm paklığı,
Xınalıqda cox seviblər
Göydə Allah sevgisiylə
Yerdə pirlər,
sevgisiylə
yaşayırlar
Xınalıqda!

***

Nəzərgah baba, Şıxkərim baba,
Müqəddəsdir bu yurd, oba,
Təbiətin möcüzəsi,
Tanrı sirri,
“Gəlin “piri,
Xınalığın yaddaşıdır,
Əsrlərin yoldaşıdır.

Dağların başında qar əriyəndə,
Axıb qarışıbdır dağ çaylarına.
Qayanın sərt üzü xasiyyətini,
Ömürlük veribdir oğullarına.

Dosta dost, düşmənə nifrət hissini,
Oğullar atadan öyrənib hər an.
Tarıx təkrar olur, dəyişir dövran,
Dəyişməz olubdur, məğrur Xınalıq!

***

Bu dağların qoynunda
Qaçaq-qoçaqlar olub.
Hər fəsildə çiçək tək
Gözəl uşaqlar olub.

Xınalığın keçmişi,
Bu günü də gözəldir,
İnsanların sevgisi
Bu dünyadan əzəldir.

Danışırlar Xınalıqda bu gün də
Şirin ləhcə Xınalığın dilində.
Öz dilini qoruyaraq orada
Şöhrət tapıb hər sənətdə, elmdə.

Azərbaycan tarixini yaşadan,
Xınalığın tarixini yaşadan,
Keçmişini dağlar kimi ucaldan
Ana Vətən, oğulların var olsun!

Xınalıqda Azərbaycan dilini,
Azərbaycan sənətini, elmini
Fəth ediblər hələ qədim dövrdən.
Saxlayıblar neçə-neçə əsrdən.

Yayda yaylaq,
Qışda qışlaq,
Yurd yeridir Xınalıq!
Oğulları sağlam-gümrah,
Mərd yeridir Xınalıq!

At oynadan, döyüşkən,
Cəngavər insanların-
Qədim Amozonların
Məskənidir, Xınalıq!

***

İmperiyanın gülləsinə
tuş gələndə Xınalıq!
Neçə-neçə oğulları
sürgün oldu.
Dağ vüqarlı oğulları
güllələndi,
Al qanları lalə kimi
Səhralara səpələndi.
Sürgün olan oğullardan
iki nəfər
Xınalığa gələ bildi.
Məşəqqətli,
ağır gündən Xınalığa dönə bildi.
Bu dönüş də,
qayıdış da
Sehr oldu,
bir sirr oldu.
Bu hadisə, bu faciə,
Vətənimin hər yerində
1937-də

Baş verdisə,
xalq birdisə,
Nə etməli,
İmperiyanın əməlinə
nə deməli...

***

Böyük Vətən savaşları
başlayanda,
Məğrur, mətin,
mərd oğullar
Döyüşlərdə,
səngərlərdə
Vuruşdular,
döyüşdülər.
Ön cəbhədə,
səngərlərdə
Çörəyinin
son tikəsini
Neçə yerə
bölüşdülər.
And içərək;
-Vətən uğru,
Zəfər üçün
vuruşdular.

Qələbənin şirinliyi
Canlarının bahasına
                başa gəldi.
Düşmənlərə qalib gəlmək
                nə gözəldi.
Şad xəbərlər,
                xoş müjdələr
Azərbaycan torpağına-
Xınalığa qədər gəldi.
Sağlam, gümrah
Oğulları yola salan
Anaları cox gözlədi.
O oğullar döyüşlərdən
Yaralanmış, şikəst kimi
                qayıtdılar.
Bu dünyadan köçsələr də
Kim deyir ki, unutdular.
O yaralar, o qəlpələr
Xınalıqlı əsgərlərin
Canlarında bitmiş idi.
Bu ağrını, bu acını
Ataları-anaları,
Yetim qalan uşaqları
Çəkmiş idi...
Gündüzləri qara zülmət,

Gecələri zülm-zillət,
Başsız qalan dul gəlinlər
Körpələrin nəfəsinə
Yatmış idi...
O cəbhədən qələbəylə
Xınalığa dönənlərin

Canlarında-qanlarında
Döyüşkənlik, əzmkarlıq
Babalardan oğullara
keçmiş idi...

Savaşlardan qalib dönüb,
Görəndə ki, evi uçub,
Ocaq sönüb,
Ölən ölub,
Müharibənin acıları,
Ürəkləri yarı bölüb,
Göz yaşıyla, qəm kədərlə
Barışdılar alın –yazı
Həm qədərlə.
Həyat yenə davam etdi...
Kimi taxıl yığımına,
Kimi qışa hazırlıqcün
Ot çalmağa,

Kimi qoyun otarmağa,
Kimisi də Xınalığın yaylağına
Beçə balı
tutmaq üçün,
Kimi qatıq –qaymaq üçün,
Kimisi də motal, pendir,

Kimisi də dəyirmanda
Dən üyütdü
Xəmir üçün.

Sübh tezdən haray saldı
Qalayçılar-
Dəmir üçün,
Meşələrə üz tutdular
Ağac- odun,
Kömür üçün.

Mübarizə apardılar
Yaşadılar,
Gözəl həyat yaratdılar.
Xınalıqda!

İnsanları uzun, sağlam
Ömür üçün,
Yaşadılar Xınalıqda!

Ad aldılar Xınalıqda!
Yaşadılar, yaratdılar Xınalıqda!

***

Həyat yeni axarına
düşmüşdüsə,
Tarix adlı bir kitabın
varağına
Düşmüşdüsə,
Neçə aylar, neşə illər
keçmişdisə...
Yenə zalım, nankor
Mənfur düşmən-
Baş qaldırdı...
Qarabağa od ələdi,
Mənfur düşmən
Xocalını od-alova
səpələdi.
Gecə yarı yandırdılar
Xocalıda körpələri.
Anaları,
qoca -yaşlı
insanları
Diri-diri yandırdılar.
Bu dəhşətdi,

bu ağrıdı.
Qarabağın özü sanki
Xınalığı köməyinə
çağırırdı.
Qarabağın fəryadına
Xınalığın igidləri,
ərənləri atılırdı.
Gərgin döyüş,
gərgin savaş
Hələ sona
yetməmiş
Xınalığın üç oğlu-
Fəxrəddin, Nadir, Rüfət
Canlarından keçərək,
Şəhid oldular fəqət.

Onlar bir evin deyil,
Bütün elin oldular.
Müqəddəs adlarıyla,
Ürəklərə doldular.

Vətən torpaqlaının
Azadlığı uğrunda
Sahib bu döyüşlərdə
Ağır yaralar aldı.

Ənvər, İlham, İbrahim,
Arif, Əfqan döyüşdə
İtkin düşdülər onlar...

Zirvəsi qarlı dağlar,
Dumanlı-barlı dağlar.
Analar qara geyib,
İgidim deyib ağlar.

Xınalıqdan su içdi,
Böyüdü illər keçdi.
Qəfil düşmən gülləsi
Şəhid oğulu seçdi.

Bu dağların qoynunda
Neçə şəhid qəbiri.
Anaları dərd çəkir
Tanrı versin səbiri.

Ağlamayın analar,
Ağlamayın sonalar.
Şəhidlərin ruhuna
Verin çoxlu dualar.

Vətən yarası alan
Şəhidlər sağ qalarlar.

Allahın hüzurunda
Dağ kimi ucalarlar.

Cənnət şəhidlər üçün
Bərəkətli bağ olar.
Vətən uğrunda ölən
Şəhidləri sağ olar.

Düşmənlərə qəbiri
Qazar igid oğullar.
Əbədiyyat dastanı
Yazar igid oğullar.

Xınalıq məktəbinə
Şəhid Rüfət Kəlbiyev
Adını veribdilər.
Dərsə gələn uşaqlar
Şəhidi ehtiramla,
Hər gün yad eyləyirlər.

Xınalığın qoynunda
Bu məktəbin özü də,
Vətən Əsgəri olub,
Xınalığın özü də
Vətən səngəri olub.

***

Deyirlər ki, ilk dəfə
Bura əziz Prezident
İlham Əliyev gəlib.
Onu bu yurda-elə
Tanrı özü göndərib.

Bu məktəb Xınalıqda
Ali Baş Komandanın
2008-ci ildə
Fərmanı ilə tikilib.

İlham Əliyevi burda
Məktəbin şagirdləri,
Məktəb müəllimləri,
Bütün kənd sakinləri
Hamı ürəkdən sevir.

Möhtərəm Prezidentə
Hamı alqışlar deyir.
Var ol, Əziz Prezident!
Sağ ol, əziz Prezident!

O, Ali Baş Komandan
O, xalqımın rəhbəri.
O, Ali Baş Komandan
Dilimizin əzbəri.

Xınalıqda hər kəsi
O eşidib, dinləyib.
Ağsaqqal babalarla,
Ağbirçək nənələrlə,
Səmimi söhbət edib.

Burda əziz Prezident
Xınalığın Tarıxı-,
Muzeyini
Seyr edib.

Xınalıqlı sakinlər
Möhtərəm Prezidentlə,
Ali Baş Komandanla,
Şəkillər də çəkdirib.

Bu xatirə, bu görüş
Yaddaşlarda qalıbdır.
İlham Əliyev adı
Dağlar tək ucalıbdır.

Ucal əziz Prezident!
Tanrı sənə yar olsun!
Ali Baş Komandanım!
Hər an bəxtiyar olsun!

***

Telejurnalist Çingiz
Xocalı soyqrımı
haqqında olan filmi
Bütün dünyaya yaydı.
Sanki yatmış dünya da
Yuxusundan oyandı.
Vəhşi ermənilərin
Qaniçən düşmənlərin
İç üzünü dünyaya
Yayan da Çingiz oldu.

Çingiz Mustafayevin
Adına olan zirvə
Şahdağında ucalır.
Ora gedən insanlar
Xınalıqdan yol alır.
Burda şəhid ruhuna
Böyük ehtiram vardır.

Şəhidlərin özü də
Göydəki ulduzlardır.
Şəhidlər günəş kimi
Yerlərə nur ələyir.
İgid mərd oğulları
İntiqama səsləyir.

***

Hakim İbn İbrahim -
Xınalıqlı haqqında
Səyyah Yaqut Əl Nəməv
Dəyərli əsər yazmış.
Haqqında məlumatlar
Toplayanda cox azmış.
Tarixin yaddaşında
Onun da adı qalmış.

***

Ötən əsrlər özü
Xınalıqlı Mahmuddan
Tarixi əsər yazmış.
Onun ömrü əbədi
Yaddaşlarda yaşamış.

***

Xınalıqlı Suleyman
Əsrlərdə yaşamış.
O, zamanın, o dövrün
Ustad sənətkarıymış.

***

Xınalıqlı Üzdənin
Məhəbbəti dünyaya

Car olub, bu ellərə,
Bəxtsiz aşiq həyatda
Qəm yeyirmiş sən demə...

***

Xınalıqlı Əmin də
böyük sənətkar olub.
Taleyi kəm olsa da,
bəxti yaman kar olub.
Amansız bu həyatda
tanrı ona yar olub,
Tənhalığı ömrünə
acı rüzigar olub.
Kim bilir ki, bəlkə də
ömrü payız tək
Xəzan yarpaq olub,
saralıb solub.

***

Xınalıqlı Qasım da
adı-sanı qazanıb.
Əzəl başdan xeyirxah,
gözəl insan yaranıb.
Xınalıqda neçə şair-
ustadın
Şeirlərin-əsərlərin
Əllərilə toplayıb.

***

Xınalıqlı şairə
Qızyetərlə, Zeynəbin
Mələklər öz əlilə
Onlara kəsdi kəbin.
Bu qadınlar,
bu qızlar,
Xınalığın qoynunda
Yazıb-yaratdı onlar.
Əsrlərlə yol gəlib,
bizlərə çatdı onlar .

***

Xınalıq tarixən aşıq İzzətin,
Sazından, sözündən ilham alıbdır.

Eldən-elə toy-büsatda aşığın
Ustad kimi adı dildə qalıbdır.

***

Rəhim Alxas Xınalığın,
Doğma oğlu şairidir.
Bu dünyadan köçübsə də
Ölməyibdir, o, diridir.
Xınalıqda onun adı,

Əzbər olub şeiriyyatı.
Yollarında yaşıl işıq
Sənət bilib ədəbiyyatı.
Gecə-gündüz Nizamidən,
Fizulidən oxuyarmış.
Şeir-sənət aləmində
Sanki çələng toxuyarmış.
Xınalığa ilk şeiri
Rəhim Alxas özü yazmış.
Şagirdlər müəllimini
Dönə-dönə yada salmış.
Gözəl şair insan kimi
Rəhim Alxas yadda qalmış.

***

Əsrimizin ziyalısı
Ənvər müəllim
müdrik insan .
Xınalığa bir töhvə tək
Bəxş eyləyibdir yaradan.
Ömrü boyu elm-təhsil
Ocağının başındadır.
Müdrik dolu ağlı ilə,
Sanki əsrin yaşındadır.
Eldən –elə dost qazanıb

Uzaqdadır-yaxındadır.
Xınalığın yaşındadır.
Dost yanında onun adı
Uca dağ tək ucadadır.
Dostluğuna sadiq insan
Amalı düz, andı düzdür.
Harda olsa onun sözü
Qılınc kimi kəsərlidir.
“Xınalığın lövhələri”
Onun canlı əsəridir.
Öz elinin- obasının
Çətin gündə,
Yaman gündə
Ağsaqqal tək gərəyidir.

Xeyriyyəçi bir insan tək
Coxlarına kömək edib,
Şagirdlərə elm-təhsil
Kitab, qələm, dəftər verib.
Xınalıqda Xınalığın
Qəzetini təsis edib.
Məğrur, mətin,
                mərd insandır.
İnsanları tez duyandır.
Dağlar sanki öz gücündən

Qollarına qüvvət verib,
Dağ vüqarlı qamət verib.
Vücuduna hünər verib.
Bu gününü, sabahını,
Gələcəyi görər verib.
Öz yurdunu, obasını
Atasını-anasını
Öz gül üzlü sonasını
Ənvər müəllim qəlbdən sevıb.
Qoy sevilsin, qoy seçilsin.
Onun qədir qiymətini
Ellər bilsin.
Təbiətin min bir rəngi
Güllər bilsin.
Əsrlərin yaddaşında
Günlər, aylar, illər bilsin.
Şagirdlərə elm öyrədən
Müəllim ömrü
Bir çıraqdır.
Şagirdlərə yol göstərən,
Müəllim ömrü
Bir ocaqdır.
Xınalığın özü kimi
Ənvər müəllim,
Əsrlərin yaddaşında,

Qərinələr sorağında
Dağlar qoynu Xınalıqda
Tanrı özü dayaq olsun,
Xınalqda elm yolunda,
Gənc nəsilə örnək olsun.

***

Xınalıq məktəbindən
Coxlu məzunlar olub.
Ali məktəb dövründə
Yaxşı oxuyan olub.
İntizamlı tələbə,
Dostluqda irəlidə,
Seçilən onlar olub.

Məktəb kitabxanası
Kitab ilə zəngindir.
Məxsus olub hər kəsə
Əlaçı şagirdindir.

Bütün fənlər burada
Yaxşı tədris olunur.
Kitabxanada hər gün
Coxlu kitab oxunur.

Sultan müəllim burada
Kitabxana müdiri.
Ondan razı qalıblar
Yaxşı oxuyan şagird
Müəllimlərin hər biri.

İldırım Zeynalzadə
Xarici dil müəllimi.
Yaxşı tədris eyləyir
İngilis dili fənnini.

Əliyev Azayla
Nadirov Kamal
Xınalıq tarıxın
Dərindən bilir.

Burada şagirdlərə
Tarix fənnini
Böyük bir əzmlə
Onlar öyrədir.
Öyünsün xalqımız
Sevinsin Vətən.
Var olsun onları
Yurdunu sevir.

***

Sultanov Səxavət
Gənc müəllim olsa da
Ali təhsilin alır
Qədim yurd
Naxçıvanda.
İnanıram onun da
Böyük gələcəyi var.
Daim axtarışdadır
Daim oxuyur-yazır.
Mətindir, həm fədakar,
Elmli-savadlıdır.
Onun böyük haqqı var.
Xınalığın haqqında
Elmi əsərlər yazar.
Xınalığın tarixin
Bütün dünyaya yayar.

***

Tufandağlı şair Avşar
İlham verib sənə dağlar.
Söyləyirsən Dədə Əmin
Yaşayıbdır ötən çağlar.
Şeiriyyatın bir çeşmə tək
Şəlalə tək çağlar-çağlar.

***

Xınalığın gənc şairi
Sizə Namikdən söyləyim.
Gəlmiş idim Xınalığa
Nədənsə onu görmədim.
Dağlar oğlu Namikin
Özünü görməsəm də.
Kitabını görmüşdüm.
Onun kitablarından
“Xınalıq əfsanəsi”
Şairin şah əsəri.
“Xınalıq və Xınalıqlılar”
Dəyərli kitabları
“Könül nəğmələri”dir.
Namikin Xınalığa
Vətəndaş, şair kimi
Böyük tövhələridir.

***

Söz xridarı meyxanaçı,
Atif səs salıbdır cahana.
Söz tapmayır, aparıcı
Atif cıxanda meydana.

***

Mədrəsələr, mədinələr
Xınalığın təməlidir.
Nuh gəmisi Xınalıqda
Tufan dağda,
Lövbər salmış
bir gəmidir.

***

Xınalıqda sərt qayalar,
axan çaylar,
buz bulaqlar,
Yaşıl çəmən,
al yaylaqlar,
Qar örtüyün,
yarıb yanan,
Alovlanan,
Pir-ocaqlar,
Uca dağlar,
Barlı bağlar,
Mərd oğullar,
Məskən salıb.
Bu yerlərin
Sakinləri
Xınalıqdan
İlham alıb!

***

Şah Abbas dağlara
Şah dağı dedi.
Çaylara Nabatın
adını verdi.
Günlərin bir günü
səfərə çıxıb,
Şeyx Şalbruzla
görüşə getdi.
Az getdi, cox getdi,
dağlar qoynunda
Bir qoca, nur kişi
rastına cıxdı.
Atını saxlayıb
soruşdu ondan.
Söyləyin siz mənə
Şeyx Şalbruzdan
Nə deyə bilərsiz
söyləyin mənə.
Qoca cavab verir:
-Eşitmənəm,
-Bilmənəm,
-Görmənəm.
Şah Abbas düşünür
onun sualına

Deyilən bu sözlər
 doğru cavabdır.
Yoluna yolçu tək
davam eyləyir.
Çatanda Şeyxin
evində ona
Oğulu deyir ki,
gördüyün qoca
Şeyx Şalbruzun
özüymüş demə...
Şah Abbas, atlılar,
 öz dəstəsiylə,
Geri qayıdırlar
təəssüflə yenə.
Gedəndə o dağlar
quru daş idi.
Cığırlar, dönğələr
bir yaddaş idi.
Dönəndə dağlardan
qaynayan bulaq,
Dupduru gözlərdən
axan yaş idi.
Sən demə,
Şeyx Şalbruz dağa qalxanda
Orada namazın vaxtı çatıbmış.

Dağlarda su tapa bilməyən o, Şeyx
Allaha ö zaman özü yalvarmış.
Tanrının ən yaxın bəndəsi kimi
Səsini eşidib Uca Yaradan.
Yol açıb ən uca dağın başından.
Qaynayıb saf sular daş arasından...
Üzünü tutaraq qibləyə sarı
Sənə minnətdaram, ey ulu Tanrı
Rəhm etdin, eşitdin dualarımı
Bulaqla yetirdin arzularımı
İzin ver mən qılım bu namazımı
Sənə fəda edim mən öz canımı.
Namazı qılarkən Şalbruz baba,
Qeybə çəkilibdir həmin orada.

***

Allahın adını hər an insanlar
Yadında saxlayıb sevməlidirlər.
İbrahimxəlil baba rəvayətini
Uşaqdan böyüyə bilməlidirlər..

***

Bənzəri olmayan Xınalıq dili,
Canlı bir tarixdir, canlı əsərdir.
Dünyaya səs salan Xınalıq dili
Bəlkə də dünyadan özü əzəldir.

***

Tarixdə sirr kimi yaddaşda qalan
Xınalıq dilinin bənzəri yoxdur.
Çaylarda zümzümə, şəlalə dilli
Təbiət sehirli nəğməsi coxdur.

Dağlardan, daşlardan axan çayları
Dərdlərə dərmandır, gövhərdir-ləldir.
Bulaqlardan bircə ovuc su içsən
Şəlaləsi diş dondurur göynədir.

Yetişib burada neçə təbiblər
Tanrı bəxş eyləyib gözəl sərvətlər

Xınalığa həsəd çəkən insanlar
Aça bilməz Xınalığın siirini.

***

Ta qədimdən Xınalıqda,
Bu içkidən içərdilər.
-Bu içkiyə Xınalığın
"Daş içkisi" deyərdilər.
-Quru taxıl soyuq suda
yuyulardı.
Gün altında daş üstündə
qurudulub.

Dağ çayının mənbəyində
Dəyirmanda üyüdülüb,
İri yekə, isti qaynar,
Qazanlarda qaynadılıb,
İsti-isti saxsı qaba yığılardı.
Soyuq, şaxta,
qış gününə saxlanardı.
Bu təbiblər, loğmanların
dərmanıdır
Xəstəliyə qalib gələn
İnsanlara sağlamlığın
fərmanıdır.
Bu yerlərin baldırğanı,
Quzqulağı, buz bulağı

Min bir dərdə dərman olub...
Bu yerlərin öz adəti-ənənəsi
Xınalığın şirin dili, öz ləhcəsi,
Zumzuməli bulaqlarla
Dağ çayının öz nəğməsi,
Xınalığın gözəlliyi,
Xınalığın gözüdür.
Xınalığın gözəlliyi
Xınalığın özüdür.

***

“Əməcə “ adəti, ”Karğa” adəti
Qədim Xınalığın özəyi olub.
Xalılar –xalçalar bütün evlərin
Gözəl mənzillərin bəzəyi olub.

***

Xınalıqda “Qaxacı”
ətdən hazırlayırlar.
Əti taxta üstündə
Nazik uzunsov kəsib,
Acı istiot səpirlər,
Sonra da duzlayırlar.
Yay fəsli günün altda
Bir xeyli saxlayırlar.

Quru dadlı “Qaxacı”
Qışa tədarük kimi
Toplayıb saxlayırlar.

***

Əfsanəvi bu kəndin
Nağıl dünyası vardır.
Hər evlərdə “Kirkirə”
Sanki bir dəyirmandır.

Hələ qalıb burada
Gör bir neçə zamandır.

Qədim dövrün adəti
Halallıqdır neməti.
Bərəkətli süfrəsi
Gözəldir ənənəsi.

“Təzək” yanacaq kimi
İşlənir bu yerlərdə.
Qışın sərt sifəti də
Gözlənir bu yerlərdə.

Qalaq-qalaq gərmələr,
Sanki sipər olubdur.
Soyuq, şaxta, ayazın
Qarşısını alıbdır.

Qış gələndə ağappaq
Qar yağır bu yerlərə.
Sanki bərəkət gələr
Xınalıqda evlərə.

Uzun qış gecələri
Xalı-xalça toxunar.
Ömrə yazılan günlər
Nağıl kimi oxunar.

Uşaqlara yun əlcək,
Corab toxunar burda.
Körpələri nə göyçək
Bəzək olubdur yurda.

Yağış yağanda burda
Dağ yolu çətin olur.
At belində oğullar
İgid, mərd, mətin olur.

Bu enişli yolların,
Bu yoxuşlu yolların,
Sirrini bilən ancaq
Xınalıqlılar olur.

Dağ çayları daşanda
Yolları kəsər, bağlar.
Soyuq səngərə bənzər
Zirvəsi qarlı dağlar.

İlin səkkiz ayında
Hava soyuq-sərt keçər.
Sıldırımlı yollardan
İgid, ərən mərd keçər.

Arıçılıq, atçılq,
Əkinçilik, maldarlıq,

Tarixən məşhur olub
Bu sənətlə Xınalıq.

Yunu yuyub nənələr.
Əyiriblər cəhrədə.
İnək-qoyun südünü
Yağ ediblər nəhrədə.

Allı-güllü corablar,
Toxuyublar nənələr.
Beşik üstə bayatı,
Oxuyublar nənələr.

Yazda xarı bülbüldən,
Zəmilərdən sünbüldən.
Dağlarda bitən güldən
Qoxuyublar nənələr.

Xınalığın dağları,
Ötüb-keçən çağları,
Yaraşıqdır bu yerə
Dağdan axan çayları.

Xınalıqda babalar
At belində gəziblər.
Xınalığa göz dikən
Düşmənləri əziblər.

Burda qızlar-gəlinlər
Xoş kəlmələr deyirlər.
Xınalığın dilində
Zümzümə eyləyirlər.

Qış gələndə qar yağar,
Dağlar-daşlar ağarar.
Dağ çayları daşanda
Sal daşları aparar.

***

"Yığ tikə" bayramı bahar gələndə,
Novruz bayramında adət olubdur.
Qonşunun qonşuya pay göndərməsi,
Keçmişdən bu günə adət olubdur.
Bütün çərşənbədə tonqal çataraq
Üstündən atılmaq adət olubdur.

Baharın nəfəsi duyulan zaman,
Dağlara çəkilər burda çən-duman.
Yuxudan oyanar anamız torpaq,
Yatar sinəsində sirr varaq-varaq.

Dağların, daşların qoynu xəzinə
Burda qədim məzar daşları vardır.

Üstündə yazılar qədim daşlarda,
Əsrin yadigarı yaddaşı vardır.

Bura ocaq yeri, qədim yurd yeri,
Bura Xınalığın təməli olub.
Buranı görməyə uzaq ellərdən
Nə qədər insanlar gəlməli olub.

Burda od qalanar ocaq qalanar,
Burda yaz bayramı həyat canlanar.
Billur gözlü bulaq suyu içənin
Canları sağ olar, ömrü uzanar.

***

Sözlərinə mərd olarlar,
Düşmənlərə dərd olarlar,
Dağlar kimi ucalarlar,
Bu yurdda qalan kişilər.

Çəmənlərdən ot biçərlər,
Bulaqlardan su içərlər.
Allahına and içərlər
Sözə düz olan kişilər.

Yaylaqlara köç eyləyər,
Yayda sürülər-sürülər.

Qatar-qatar uçan quşlar
Göydə düzülər-düzülər.

Təndirlərdə lavaş-yuxa,
Qızlar bişirər-bişirər.
İsti çörək pendir ilə
Şirin yeyilər-yeyilər.

“Şirin Bükmə “Xınalığın
Şirin- şəkər nemətidir.
Qonaq gəlsə bura hər kim
Şirin çayla içməlidir.

Kəklik otu ətirindən,
Çiçəklərin çətirindən.
Yağlı qoyun pendirindən
Doymaq olmur Xınalıqda.

Hər bir evın həyətində
Ot tayası dağa bənzər.
Inək südü dadlı olur,
Qaymaq burda yağa bənzər.

Baldan qoxar çiçək ətri
Doyunca ye allah xətri.
Heç görməzsən qəmi-dərdi
Dovğaya qatsan göyərti.

***

“Alçagülçiçi”ylə, “Xirdagülçiçi”,
Qubada ən gözəl xalça növüdür.
“Qrız”, “Qmıl”, ”Zeyvə”,
“Cimi”, həm “Çiçi”
Bu aləmə bəxş eyləyib, dürr-inci.

Dünya muzeyləri hələ qədimdən,
Quba xalısına həsəd aparıb.
Böyük sərkərdələr qanlı döyüşdə,
Qafqazdan nə qədər xalı aparıb.

Harada olsa da bu xalıların
Odlar diyarından olması bəlli.
Naxışlar min rəngin çalarlarında
İlmədə toxunub”Pirəbədil”li.

Xalılar üstündə olan naxışlar,
Yer ilə göylərin cazıbəsidir.
Odlar diyarının varı-dövləti
Dünyanın bir “Xalça xəritəsidir.”

Nə qədər döyüşlər, savaş da olsa,
Xalını toxumaq dəbdən düşməyib.
Qubada ən gözəl xalça növlərin,
Çeşidi, naxışı dildən düşməyib.

Gəzib eldən-elə, şanı-şöhrəti,
Həmişə var olub, dəyər-qiyməti,
Azəri xalqının zəri-ziynəti,
Qubada toxunan xalçalar olub.

Xınalıqda xalçaçılıq sənəti,
Toy büsatlı olub onun niyyəti.
Xoş amalı, xoş arzulu bu xalqa
Yaradan bəxş edib bütün sərvəti.

Xınalığın adı kimi şöhrəti,
Aşıb-daşıb, bu tanrının payıdır.
Tükənməyən halallığın zəhməti
Alın tərin, halal-haqqın sayıdır.

Qubada”Quba” xalçası,
“Köhnə Quba” xalçası,
Bayatıyla toxunub
“Hacıqayıb”xalçası.

“Sirtçiçi”, “Xan” xalçası
Cox mürəkəb, zəngindir.
Xınalıq ! Bu boyalar
Xalıda öz rəngindir.

“Zili”, “Sumağ”, “Cecim” də
Qıyıqlarla toxunar.

“Palaz” xovsuz xalçalar
Xınalıqda toxunar.

Bu xalılar üstündə
Rəsmlər də çəkilib.
Təbiətin qoynunda
Şəkillər də çəkilib.

Yurdumuza şan-şöhrət
Gətiribdir xalılar.
Neçə min illikləri
Ötürübdür xalılar.

Əsrlərlə-illərlə
Görünübdür xalılar.
Dünyanın ağırlığın
Götürübdür xalılar.

Xalı necə toxunar,
Gündüz-gecə toxunar.
İlmələr əlvan rəngdə
Bircə-bircə toxunar.

Evləri bəzər xalı,
Elləri bəzər xalı
Xınalıqda toxunan
Dillərdə əzbər xalı.

Xalı olan evlərdə
Gözəlliyin özü var.
Naxışların üstündə
Xınalığın sözü var.

Xalı üstə xal gördüm,
Naxışları al gördüm.
Bu dünyanın özünü
Şirin-şəkər, bal gördüm.

Əzizim xalı görüm,
Üzündə xalı görüm.
Oturaq bir yan-yana
Toxuyaq xalı görüm.

Əziziyəm naxışdı,
Nə kotandı, nə xışdı.
Xınalıqda toxunan
Xalım naxış-naxışdı.

***

Müqəddəs Qurban bayramı
Evlərdə məclis qurular.
Axan çaylar, axan sular
Həmin gecə durular.

Neçə-neçə ürəklərdə
Min bir arzu tutular.
Xınalıqda bu adətlər
"Çisuçisə" adlanar.

Ağsaqqallar, ağbirçəklər
Uşaqlara pay yollayar.
Qonşulara, qohumlara
Hər kəs baş çəkib yoxlayar.
Xarıbülbül, bənövşələr
Bahar qızın soraqlayar.
Çöl-çəməndə uşaqlar da
Sevinərək haray salar.
Bu baharın gəlişilə
Dağ çayları aşar-daşar.
Təbiətin oyanması
Xınalığa cox yaraşar.

***

Ramazan bayramı -
müqəddəs gündə.
Dünyadan köçənlər
Yada salınar.
Ruhlara dualar-
Namaz qılınar.

Bu bayram öz gözəl
adətlərilə
Yaddaşda yaşayar,
Yaddaşda qalar.

***

Deyirlər ki, bu dünyaya
Xeyirlə-şər əkiz gəlib.
Xeyir toyla-nişanıyla,
Şər kimsəsis, səssiz gəlib.

Matəm olsa Xınalıqda
Hamı qəhər-yasa batar.
Axın-axın, qatar-qatar
Kömək üçün gəlib çatar.

Xınalıqda bir adət var;
Yetimləri, kimsəsizi
Tək qoymazlar...
Xeyirxahlıq, savab işlə
Yaddaşlarda qalarlar.

***

Bu dağların qoynunda
Güllər-çiçəklər bitib.

Bu dağların yolundan
Görəsən kimlər keçıb?
Bu dağların suyundan
Görəsən kimlər içib?

***

Xınalıqda toy olanda
Yeddi günlə davam edər.
Təbrik üçün bu məclisə
Uşaq-böyük, cavan gələr.

Oğlan toyu yeddi günsə,
Qızın toyu bir gün olar.
Dayı evindən köçən qız
Qalmaz heç vaxt
tənha yalqız.
Atasının qapısında
Cehizləri at belində
Cavanların əllərində
Ər evinə aparılar.
Bu şənlikdən
toy-büsatdan
Hər kəsin könlü şadlanar.
Bəy-gəlinə ağsaqqallar
Ağbirçəklər xeyir-dua

Gözəl günlər arzulayar.
Sağlam ömür, gözəl həyat
Oğul-uşaq arzulayar.

Dünyaya körpə gələndə
Oğlandırsa;-
-Hadar, Budle, Ənnə, Mətan.
Qız uşağı doğulanda;
-Səlhə. Akır, Həbbə, Ktan
Bu adların mənasını
Özü veribdir yaradan.
Körpələrin bu dünyaya
Gəlişindən sevinərlər,
Şadlanarlar...
Şirin –şəkər noğulları
Qonşulara paylayarlar.
Bu şad gündə
qohum-qardaş yığışarlar
Ad qoyarlar çağırarlar.
Körpəlikdən uşaqlarla
Xınalıqca danışarlar.

***

Bu yer özü, bu yurd özü
Müqəddəsdir başdan-başa

Baxanları heyran edir
Dağlar özü bir tamaşa.

Bu yerlərdə “Kındır Daqqar”
“Ənzir””Muqa”, ”Bozur””Zanqar”,
Bu yerləri seyr eyləyən
Baxar-baxar heyran qalar.

“Cuta”, ”Daqqar”, ”Qərəs”, ”Gulur, ”“
Cumi”, ”Visi”, ”Bidad”, ”Anteş
Burada çaylar durulur.
“Muqammıqıx”, ”Oculbuda”,
Yaddan cıxmaz düşər yada.

***

“Kukaş”, ”Xiler””Kımac”, ”Bugun”
Yaddaşlarda yaşar bu gün.
“Qədişah”, ”Unduvus”, ”Xas”,
Söyləyirəm qulaq as
Keçmışlərdən qalan adət
Bu yerlərə olubdu xas.
Bu yerlərin özü tarix,
Bu yerlərin özü yaddaş.

“Kçalki”, ”Toddur”, ”Oculbuda”,
Doğma diyar, qədim Quba.
“Kıma”, ”Ziqelbiriş”, ”Zabarış”
Cox görübdür savaş-barış.

“Qıqendiriş”, ”Kçalki”
Çatmayıbdir yad əl ki,
Tarıxlərin savaşında
Oddan keçib yəqin ki.

Burda yağış gec yağarsa,
Otlar çöldə quruyarsa,
Xırda-xırda qara daşlar
Dağ çayına atılarsa,
Daşlar asta axarlarsa,
Yağış yağar...
Burda yağış gözlənəndə
Göydən yerə-
Dolu yağar, leysan yağar.
Cığırlardan, dərələrdən
Sel-su axar...
Yagış yağıb dayanmasa
“Guğul” fiqur hazırlanar,
Qapı-qapı gəzdirilib
Pay yığılar, alqışlanar.

Təbiət də rəhmə gələr,
Yağış kəsər sel dayanar,
Günəş doğar, göy özündə
Göy qurşağı naxışlanar.
Bu gözəllik Xınalığa
Ulu tanrıdan yollanar.

***

Günəş və Ay tutularsa,
Bu əlamət yaxşı deyil.
Hələ qədim zamanlardan
Şər qüvvələr bunu deyir.
Burda plov, aş da deyil
Burda hədik bişirərlər.
Bu yeməyə "Qim" yeməyi,
"Nuh" yeməyi deyərlər.
Bu yeməyi ağbirçəklər bişirərlər.
Kasalarda qonşulara
Yaxınlara pay verərlər.
Qohum-qonşu, ata-ana
Körpə şirin balalar da,
Uşaqlar da yeyərlər
Halal olan bu nemətə
Min bir şükür deyərlər.

***

Xınalıqda el məsəli;
Babaların sözləridir-
Oğul evin gərəyidir,
Oğul düşmən çəpəridir!

Cox olarsa qızın sayı
Ulu tanrı, yaradandan
İstəyərlər oğul payı.
Oğuıllara oğul tayı.
Tanrı istək arzuları
Eşidəndə qəbul edər.
Şirin payı, noğul payı
Oğul payı göndərər.
Şükür edərək Allaha
Sevinərək ata-ana
Bu oğlanın saçlarından
                qaim-qədim adət kimi
Bir balaca hörük hörər.
Nənəsinin –babasının
Üzü gülər,
Yeddi ildə
                yeddi dəfə
                qurban kəsər.
O, balaca hörüyü də

Həmin anda baba kəsər.
Bu oğullar tez yeriyər,
                tez böyüyər.
Dil açanda :
Ana deyər-
Vətən deyər.
Anasını Vətən kimi,
Vətənini ana kimi
Sevən oğul əsgər gedər.
Gecə-gündüz
Səngərlərdə keşik çəkər.

Şükür sənə ey yaradan
Oğul payım olub əsgər.
Deyən ana ürəyindən
Gözlərindən sevgi yağar.
Əsgər gedən oğullara
Ulu Tanrı dayaq olar.

Vətənin keşiyində,
Keşik çəkən mərd oğullar.
İgid olar, mərd olar.
Gecə-gündüz səngərlərdə
Düşmənlərə dərd olar.

İgid əsgər, ərənlər,
Səngərlərdə oyaq olar.
Anaların alqışı da
Əsgərlərə dayaq olar.

Oğullara güvənin,
Əsgərliyə göndərin.
Sevdiyi qız bu eldə,
Tezcə nişan göndərin.

Xınalığı al gördüm,
Daşlarını sal gördüm.
Dağlarının başında,
Göylərdə qartal gördüm.

Xınalığın dağları,
Ötüb-keçən çağları.
Nələr görüb dünyada
Başı qarlı dağları.

***

Kamal müəllim bələdiyyənin sədri,
Xınalığda cox bilinir qədiri.
Qohum-qardaş insanların hər biri,
Onu sevir, onunla fəxr edirlər.

Arzu, istək, əməlləri var olsun,
Tanri ona dayaq olsun, yar olsun.

***

Xınalıq qəzeti dərc olunur burada
Redaktorluq tapşırılıb Murada.
Əsərləri, yazıları dərc edir.
Xınalığı yada salır dünyada.

Xınalığın öz dilində
Çap olunur şeirlər.
Murad bəyə buna görə
Minnətdardır şairlər.

***

Sərhədçilər dağların
Keşiyin çəkir burda.
İgid cəsur əsgərlər
Dayaq olublar yurda.

Vətənin sərhədləri
Gecə-gündüz qorunur.
Hərbi marşlar-mahnılar
Səhər-axşam oxunur.

Komandirlər burada
Hərbi təlim keçirlər.
Vətən əsgəri kimi
Hərbi andı içirlər.

Deməyin ki, sizlərlə
Görüşə gəlmədim mən.
Mən sizi Xınalıqda
Seyr eyləyib görürdüm.
Sizinlə mən öyünüb,
Qürur, fərəh duyurdum.

Var olsun, Ana Vətən!
Sizin kimi oğlu var.
Sizin kimi oğulu
Qəlbim necə unudar?

Hərbin qayda-qanunu
Hərbin də öz sirri var.
Üçrəngli bayrağımın
Əbədi bir rəmzi var.
Var ol, Vətən əsgəri!
Var ol, igid oğullar!

Əsgər Vətənin səsi,
Əsgər Vətən nərəsi,
Sizə ərməğan olsun
Bu “Sərhədçi” nəğməsi –

Bütöv Azərbaycanın sərhədlərini
Qorumaq peşəsi cox şərəflidir.
Günəş şəfəqilə nura boyanan
Doğma yurdumuzun sərhədləridir.

Vətən sərhədləri keşiyi bizim
Müqəddəs andımız, amalımızdır.
Odlar diyarında vətən torpağı,
Səcdəgah, qibləgah vüqarımızdır.

Qoruyaq Vətənin sərhədlərini
Ürəyimiz kimi, canımız kimi,
Kükrəyək dəniz tək, çağlayaq çay tək.
Damarda qaynayan qanımız kimi.

***

Sərhədçilər sərhədi,
Tanrım! Qoru əsgəri.
Qoru bəd nəzərlərdən
Ana yurdu, əsgəri.

Oğul Vətən əsgəri,
Oğul Vətən sipəri,
Ana torpaq səngəri
Əsgər qoruyar ancaq.

İnanıram tezliklə,
Qələbənin sorağı,
Əsgərlərin dilindən
Yurduma yayılacaq!
Yağılar yurdumuzdan
Əbədi qovulacaq.

***

Atəşgahdan, məsciddən
Tarixi abidələrdən,
Xınalıqlı Rüstəmlə
Bir xeyli söhbət etdik.

Söylədi ki burada
Qədim qəbirlər olub,
Sirlə dolu dünyada
Cox möcüzələr olub.

***

Xınalıq muzeyini
ziyarətə getmişdim.
Sanki burda başqa bir
səyahətə getmişdim.
Əsrin yadigarı
olan muzeydə
Sirlə dolu
bir sərvətə yetmişdim.

Burda qədim, tunc
dövrün
Saxsı-gil qabı vardı.
Ötən əsrdən qalan
Heybə, xurcun, farmaşlar,
Kürdü, çarıq, başmaqlar,
İsti kürklər, başlıqlar,
Xovlu, xovsuz xalılar,
Möhürlər, əlyazmalar
Ərəb əlifbasıyla
Dini kitablar vardı...

Xınalıqda tarixi
Qədim –zəngin müzeyi
Xəlil Rəhman Cabbarov

Özü qurub-yaradıb.
Tarixi bilinməyən
Coxlu sayda ən qədim
Əşyaları toplayıb.

Tarixi –etnoqrqfik
Qədim muzeydir bura.
Zülmətlərdən əsər yox
İşıq- güneydir bura.
Misdən hazırlanmışdı
Burda qablar –qazanlar.
Su qabı parçlar vardı,
Səhəng, samovar vardı.
Qablar vardı qamışdan,
Qablar vardı ağacdan.
Tərəzilər taxtadan
Seçıb halalı-haqdan.
Durna çırağı burda
İşıq saçırdı sanki.
Sərpuş, sərnic, məcməyi,
Taxta qaşıq, ləyəni,
İri mis qazanların
Yanında vardı sini.

Bu tarixi muzeydə
Nənələr cəhrəsini,
Farmaşda cehizini
Əmanət saxlamışdı.
Köhnə kişilərinsə,
Ulu babalarınsa-
Ox ucluğu-toppuzu,
qılınc-nizəsi vardı.
Burda, Quran kitabı
“Səccadə” qabı vardı.
Davadan dönənlərin
Orden medalı vardı.
Savaşdan dönənlərdən
Muzeyə yadigardı.

Türk dostluğu burada
Tərənnüm edilirdi.
Burda qoşa dayanan
Ənvər, Nuru Paşanın
Qədim şəkilləriydi

***

Divardan asılmışdı
Bir Əfəndi şəkili,
Bələdçidən soruşdum:-

Bu şəkil kiminkidir?
Natiq cavab verdi ki, -
Bu Əhməd Əfəndidir.
Ta qədimdən bu yana
Qalan bircə şəklidir.
Sizə onu deyim ki,
Xınalıqda əfəndi,
Mürşid, mürid cox olub.
İmperiya qorxusundan
Qalanının şəkili
Yandırılıb, yox olub.
Xəyal məni bir anda
Uzaqlara,
Ata yurdum
Qazağa
o dağlara apardı...
Hələ uşaq vaxtında
Nənəmin söylədiy
Sözləri xatırladım.
O bizə söyləyərdi:
-Qarabağdan Mir Həmzə
Seyid Nigari vardı.
Onun köməyi ilə-
Borçalıdan, Göyçaydan,

Qazaxdan, Qarabağdan,
İstanbuldan, Qubadan
Coxlu müridi olmuş.
Bu müridlər içində
Əhməd Əfəndi olmuş.

Xatirimdə illərdi
saxlayırdım onu mən.
Elə bil uşaqlıqdan
Tanıyırdım onu mən.

Mənim ata yurdumda
Bir müqəddəs ocaq var.
Hacı Mahmud Əfəndi
“Göy Türbəsi” adlanar.
Həyatımda ən çətin
Günlərimdə, anımda
Göydə Ulu yaradan
Yerdə isə müqəddəs
Hacı Mahmud Əfəndi,
Ruhu dayaq olubdur.
Bəlkə bu gün bura mən
Qədim kənd Xınalığa
O müqəddəs ruhların
köməyilə gəlmişəm.

Əhməd Əfəndi ilə
Hacı Mahmud Əfəndi
Dostluğunun haqqında
Dəyərli söhbətləri
Nənəmdən dinləmişəm.

Bu gün burda muzeydə,
Dağların zirvəsində,
Tanrıya yaxın olan
Xınalıqda, muzeydə
Bir yerdə təhsil almış,
Yaddaşlarda yaşamış
Əhməd Əfəndi ilə
Hacı Mahmud Əfəndi
Ruhuna ehtiramla
Ulu Tanrı, Allahdan
Rəhmətlər diləyirəm.
Ulu tanrı Allahın
Önündə baş əyərək
Bir səcdə eyləyirəm.

Xəlil Rəhman, var olun,
Bu tarixi muzeyi
Xınalığın özündə
Özün tək yaratmısan.
Xınalığın adına
Bir heykəl ucaltmısan.

***

Daşların üstündə bitən çiçəklər,
Güllərin ləçəyin oxşayırdılar.
Xınalıq qoynunda şair dilindən,
Söylənən sözləri xoşlayırdılar.

Çiçəklə danışdım, güllə danışdım,
Elə bil məni də duymuşdu onlar.
Yazılı daşların üstünə baxdım
Dağlardan bir heykəl qoymuşdu onlar.

Öpdüyüm daşların nəfəsin duydum.
Deyəsən o daşın özü mən idim.
Dağların qoynundan sərin meh əsdi
Getdim ötən əsri səyahət etdim.

Nə qədər saf imiş, Xınalıqlılar,
Nə qədər pak imiş Xınalıqlılar.
Burda darıxmayır gələn qonaqlar,
Yaşayın, var olun Xınalıqlılar!

Söz verdilər sözlərində durdular.
Sənəd üstə bir möhür də vurdular.
Mənim kimi onlar da şad oldular
Var olun, sağ olun Xınalıqlılar!

İlahi !Tanrının gücünə bax ki,
Yaradıb burada “Pilləkanlı daş”.
Sehrinə düşdüyum, qədim bir kəndə
Oldun Xınalığa ”Fəxrı Vətandaş”.

Bu mənə tanrının töhfəsi oldu.
Bu məni tanrının sevməsi oldu.
Xınalıq! Zəminə Xınalının da
Könlündə Xınalıq nəğməsi oldu,

Bu mənə anamın laylası oldu.
Tanrıya tükənməz sevgisi oldu,
Bu mənə tanrının açdığı yoldu.
Xınalıq əbədi könlümə doldu.

***

İllər idi yol gəlirdim sənə mən
Çatammırdım niyə sənə, Xınalıq.
Yollarımı kəsmiş idi ayrılıq.
Bu həsrətim bitmiş oldu, Xınalıq!
Sənə çatdım, sənə yetdim, Xınalıq!

Nə gözəldir burda qızlar oğlanlar,
Nə xoşbəxtdir sənə övlad olanlar
Bəxtəvərdir burda yaşa dolanlar

Dağ qoynunda bitmiş gülsən, Xınalıq!
Bərabərin yoxdur, birsən Xınalıq!

Dünya boyda ürəyindən nur saçdın.
Gəlişimə qucaq açdın, qol açdın
Həsrətimə son qoyaraq yol açdın.
Sənə gəldim, sənə yetdim, Xınalıq!
Arzulara daha yetdim, Xınalıq!

Hər kəs mənə Xınalıqdan dedilər,
Dağ kəndidir, ucalıqdan dedilər.
Əsrə taydır qocalıqdan dedilər.
Möcüzəsən, bəlkə sirsən, Xınalıq!
Məndən ötrü özün pirsən, Xınalıq!

Qız-gəlinlər xalıları toxuyur,
Çöl-çəmənlər çiçək ətri qoxuyur,
Övladların öz dilini qoruyur
Əsrlərə bir yoldaşsan, Xınalıq!
Təbiətə bir sidaşsan, Xınalıq!

Göy üzündən günəş nuru ələnib,
Könlüm burda gözəliyə bələnib.
Dağlar daşlar dilə gəlib, dillənib
Oxunmamış bir kitabsan, Xınalıq!
Tarix adli bir yaddaşsan, Xınalıq!

Qayaların dağ qoynuna söykənib,
Sənə heyran olub, səni bəyənib,
Sevincimdən könlüm yaman kövrəlib.
Səsimə səs verib yetdin, Xınaliq!
Bir ömür bəxş etdin mənə, Xınalıq!

Saçlarımın xınasıdir, Xınalıq!
Könlüm evin aynasıdır Xınalıq!
Ruhum burda qalasıdır, Xınalıq!
Səndən ilham alasıdır, Xınalıq!
Qoy desinlər Xınalının özü də
Xınalığın balasıdır, Xınalıq!

***

Xınalıq öz adını
mənə halal eylədi.
Xınalıq öz haqqını
mənə halal eylədi.
Dağlar dilə gələndə,
daşları lal eylədi,
Xınalını bu yurda
hüsnü-camal eylədi.

Yazdığım şeirləri
Xınalığa oxudum.

Ömür –həyat yoluma
Xınalığı toxudum.
Duyğularım gül idi,
sanki çələng toxudum
Nəfəsindən gül ətri,
çiçək ətri qoxudum.
Ruhum göydə uçurdu,
sanki yerdə yox idim.

Göydə Mələklər məni
yanlarına çağırdı.
Günəş nuru üzümə,
gözlərimə yağırdı.
Tanrıya əyan olan,
bu yazdığım şeiri
Xeyirli məqsəd üçün
bir savaba yazırdı.
Xınalığa köklənən ruhum,
cismim, canım da
Verilən sualları
bir cavaba yazırdı.
Hərənin bir ulduzu,
mənim də bəxt ulduzum.
Qızıldan qurulmuşdu,
göydəki taxt ulduzum.

Necə də bəxtəvərdir,
işıq saçır, nur saçır,
Zülmətləri yarırdı,
mənim xöşbəxt ulduzum.

***

Arzuların içində
arzuları yaratdım.
Arzuların içində
arzulara mən çatdım.
Əsrlərin sirdaşı,
bilinməyirsə yaşı.

Xınalığın haqqında
böyük əsər yaratdım.

Əsərim Xınalığın
yaddaşına yazlısın.
Mənə ana tək doğma
yurd daşına yazılsın.
Xınalı Zəminənin
Xınalığa nəğməsi
Ulu tanrı, Allahın!
Alqışına yazılısın!

***20-30.07.2014***

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Çapa imzalanmışdır: 18.09.2014.
Formatı: 60x84 1/16. Həcmi: 6,5 ç.v.
Sifariş 17. Tiraj 300.
«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəə kitabın məzmununa və orfoqrafiyasına
görə heç bir cavabdehlik daşımır!

~~~~~~~~~~~~~~~~~~~~~~

Ünvan: Bakı ş., Qanlı Gölün Qərb Sahili, 125
Телефон: 408-18-30